# Ombudsman aparatının nümayəndəsi cəbhəboyu zonada yerləşən hərbi hissələrdə olub

*Ombudsman Aparatının Hərbi qulluqçuların hüquqlarının müdafiəsi sektorunun müdiri Fəzail Həsənov, eləcə də Müdafiə Nazirliyinin nümayəndələri cəbhəboyu zonada yerləşən hərbi hissələrdə olublar.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Ombudsman Aparatının nümayəndəsi hərbi qulluqçuların döyüş mövqelərindəki xidmət və məişət şəraiti ilə tanış olub, hərbi hissələrdə insan hüquqlarının müdafiəsi vəziyyətini öyrənib və şəxsi heyətin suallarını cavablandırıb.

Aparatın əməkdaşı əsgər yataqxanalarına, yeməkxanalara, tibb məntəqələrinə, məişət və digər inzibati otaqlara baxış keçirərək qidanın və müalicə işinin keyfiyyətini, asudə vaxtın səmərəli keçirilməsi üçün yaradılan şəraiti, şəxsi heyətlə hərbi vətənpərvərlik və təlim-tərbiyə sahəsində aparılan işi müsbət qiymətləndirib.

